Scientific News of Azerbaijan State Azerbaijan Sports Academy

Sport Science Journal
vol. 7, № 1, 2025, pp. 17-23.

# YÜKSƏK DƏRƏCƏLİ ŞAHMATÇILARIN YARIŞ ZAMANI KONKRET RƏQİBƏ QARŞI HAZIRLIQ PROSESİNİN TƏDQİQİ

**r.ü.e.d., prof. B.Ə. Rüstəmov[1a], S.O. İbrahimova[1b], S.B. Quliyev[1c], J.A. Məhərrəmli[1d]**

[1]*Azərbaycan İdman Akademiyası*
[a] bakhtiyar.rustamov@sport.edu.az, orcid.org/0000-0003-2683-0996
[b] sabina.ibrahimova@sport.edu.az, orcid.org/0009-0001-2480-7154
[c] sarkhan.guliyev@sport.edu.az, orcid.org/0009-0003-6103-700X
[d] jala.maharramli.2024@sport.edu.az, orcid.org/0009-0003-6103-700X

**Nəşr tarixi**
Qəbul edilib: 13 yanvar 2025
Dərc olunub: 19 mart 2025
© 2022 ADBTİA Bütün hüquqlar qorunur

**Annotasiya.** Baxmayaraq ki, yüksək dərəcəli şahmatçıların hazırlıq prosesi eninə-boyuna yaxşıca öyrənilib, son on illərin ortaya qoyduğu texniki dəyişiklər bu prosesə yeni bir nəzər salmağı tələb edir. Günümüzün ayrılmaz hissəsi olan kompüterlərin, internet səhifələrin vasitəsi ilə meydana çıxmış elektron oyun platformaların yaratdığı müxtəliflikdən faydalanaraq, məqalədə yarışlarda konkret rəqibə qarşı oyuna necə hazırlaşmağa dair təklif və tövsiyələr şərh edilmişdir. Müasir şahmat idman növünün aktual problemlərindən biri yüksək dərəcəli şahmatçıların yarış zamanı konkret rəqibə qarşı hazırlıq prosesidir. Daha sonralar bu mövzunu öz işlərində inkişaf etdirən məşhur qrossmeysterlər A.Kotov, Z. Bondarevskiy və digərlərinin kitablarında bir qayda olaraq tədqiqatların M.Botvinnikin imzası ilə təhlil olunduğu sxem üzrə aparıldığını aydın şəkildə görmək olar. Şahmat dünyasının məşhur məşqçilərindən biri olan Mark Dvoretski yarış zamanı fərdi rəgibə qarşı hazırlığa, ümumiyyətlə yarışa hazırlıq prosesini əsaslı şəkildə təhlil etmişdir. Təxminən 50-60 il öncə, şahmatçının inkişafını təmin edən əsas xüsusiyyətlərdən biri mütaliə, şahmat kitablarından və jurnallardan topladığı materialların necə mənimsənilməsindən asılı olduğu kimi, eyni ilə müasir şahmatçının inkişafında şahmat kompüter proqramlarının və şahmat internet səhifələrinin əhəmiyyətini görməmək səhv olardı.

Yüksək dərəcəli şahmatçıların yarış zamanı konkret rəqibə qarşı hazırlıq prosesinin aktuallığına dair məqalədə təhlil və tədqiq olunaraq tövsiyyə məcmuəsi sistemləşdirilmişdir. Məqalədə toxunulan problemin aradan qaldırılması və həlli istiqaməti üzrə, yüksək dərəcəli şahmatçılar və məşqçilər üçün «Chessbase mexanizmi» təklif edilmişdir.

**Açar sözlər:** *şahmat, yüksək, dərəcə, şahmatçı, hazırlıq, yarış, kompüter, proqram.*

Şahmat oyununun idman və sosial əhəmiyyətinin inkişafı onun elmi-metodiki səviyyədə öyrənilməsinin vacibliyini aktuallaşdırır. Təbii olaraq, bu məqsədlə, idman nəzəriyyəsinin metodiki üsullarından istifadə məqsədəuyğun hesab edilir.

Müasir şahmat idman növünün aktual problemlərindən biri yüksək dərəcəli şahmatçıların yarış zamanı konkret rəqibə qarşı hazırlıq prosesidir. Günün vacib problemlərindən biri yarış zamanı yüksək dərəcəli şahmatçıların əsas hədəf nöqtəsi konkret rəqibə qarşı düzgün debüt repertuarının seçilməsidir. Debüt – (fr. «başlanğıc») qüvvələrin səfərbərliyi (inkişafı) ilə xarakterizə edilən şahmat oyununun ilkin mərhələsidir. Sadə debüt nəzəriyyəsi 10-15 gediş davam edir. Oyunun başlanğıc hissəsinə xüsusi fikir verilməlidir. Məhşur italyan nəzəriyyəçisi D.Lolli şahmat oyununda debütü obrazlı şəkildə desək, tikilmiş binanın bünövrəsinə bənzədir. Debüt oyunun gələcək müqəddaratını həll edən əsas hissələrdən biridir. Debüt hissəsi zəif oynanılarsa, tezliklə məğlubiyyətlə üzləşmək olar. Bu deyilənlərdən belə nəticə çıxarmaq olmaz ki, oyun zamanı bütün fikri debüt hissəsinə yönəltmək lazımdır. Şahmat oyununu mükəmməl öyrənmək üçün ona ümumi prizmadan, yəni bütün sahələri kompleks öyrənməklə nail olmaq olar.

Ənənəvi idman növlərində olduğu kimi,

şahmatçıların hazırlıq strukturu texniki, taktiki, psixi və fiziki hazırlıq növlərindən ibarətdir. Aparıcı yer texniki hazırlığa verilir.

Bu mövzu haqqında çox yazılıb və çoxlu sayda müəyyən metodikaları biz kitablarda və ya internetdə rast gələ bilərik. Ancaq, dərindən bu problemə nəzər saldıqda biz görə bilərik ki, bu hazırlıq metodikaları məşhur, böyük nüfuza malik müəliflər tərəfindən hazırlansa da artıq onlar köhnəlmiş və günümüzün tələblərinə tam cavab vermirlər. Məlum olduğu kimi kompüterlərin və kompüter şahmat proqramlarının, internetin şahmatçıların yaradıcılığına, oyunlarına və hətta həyatına sirayət etməsi çox şeyləri dəyişmişdir. Nümunə üçün bəzi amillərin adını qeyd edə bilərik. Məsələn: müasir dövrdə oyunların təxirə salınması kimi bir mərhələ artıq ləğv olunmuşdur. Bu amil üzündən zamanında çox öyrəninilən və şahmatçların diqqətini cəlb edən gizli gedişin yazılması və təxirə salınmış mövge və ya mövqelərin təhlil edilməsi kimi fəaliyyət növləri artıq əməli və tətbiqi əhəmiyyətini itirmişdir. Bu cür amillər təbii olaraq köhnə yanaşma metodlarına yenidən baxılmasını və uyğun əlavələr edilməsini zəruri edir. Turnirə hazırlaşmaq ilə fərdi rəqibə qarşı hazırlıq bir-birindən ciddi şəkildə fərqlənən bir prosesdir. Məsələn altıncı dünya çempionu Mixail Botvinnik turnir hazırlığını aşağıdakı dörd hissəyə bölürdü:

1. Texniki hazırlıq
2. Psixoloji hazırlıq
3. Fiziki hazırlıq
4. Xüsusi hazırlıq

Daha sonralar bu mövzunu öz işlərində inkişaf etdirən məşhur qrossmeysterlər A.Kotov, Z. Bondarevskiy və digərlərinin kitablarında bir qayda olaraq tədqiqatların M. Botvinnikin imzası ilə təhlil olunduğu sxem üzrə aparıldığını aydın şəkildə görmək olar [3, s. 110]. Şahmat dünyasının məşhur məşqçilərindən biri olan Mark Dvoretski yarış zamanı fərdi rəgibə qarşı hazırlığa, ümumiyyətlə yarışa hazırlıq prosesini əsaslı şəkildə təhlil etmişdir [4, s.13]. Şahmat tarixinin onuncu dünya çempionu B. Spasskinin məşqçisi İ.Z. Bondarevski «Spasski şahmat olimpini fəth edir» kitabında öz yetirməsi ilə onun rəgiblərinə qarşı necə hazırlaşdıqlarının bəzi epizodlarını yazarkən özlərinin hazırlıq üsulları ilə oxucuları tanış edir. Yarış zamanı fərdi rəqibə qarşı hazırlıq metodunu ətraflı şəkildə ilk olaraq şahmat tarixinin ölməz dördüncü dünya çempionu Aleksandr Alyoxinin «Şahmat olimpinə yürüş» kitabında daha aydın və dərin təhlilini vermişdir. A.Alyoxin qələmə aldığı kitabda, dünya çempionu adı uğrunda matç zamanı öz rəgibi Xose Raul Kapablankanın oyunlarının ətraflı formada təhlilini görmək mümükündür. Dünya şahmat tacı uğrunda mübarizəsini, rəgibi üçüncü dünya çempionu X.R.Kapablankanın psixoloji, mənəvi və idmançı nöqteyi - nəzərindən portretini hazırlayaraq, onun güclü və zəif tərəflərini müəyyən etmişdir. Kitabda onlardan necə istifadə yollarını göstərməyə dair irəli yürüdülən mühakimələrin vacib olduğunu qeyd edərək və həmçinin yüksək dərəcəli şahmatçıların diqqətini aktual problemə yönəlməsinin vacibliyini bildirmişdir [2, s. 219].

A. Alyoxin yarışa və yarış zamanı hazırlıq prosesini aşağıda qeyd olunan fikirlər formasında əsaslandırmışdır:

1. Kapablanka hətta çox üstün olduğu mövqelərdə, əgər rəqibi ciddi və yaradıcı formada (kreativcəsinə) müqavimət göstərirsə onda Kapablanka özünü itirib səhvlər buraxır. Nümunə olaraq Kapablanka ilə (Nyu-York, 1927) oynanılan oyundan fraqmentlər gətirilmişdir. Oyunun təhlilinə nəzər yetirilən zaman, bir piyada və aydın mövqe üstünlüyünə baxmayaraq A.Alyoxin dözümlü və inadkar müdafiə ilə oyunu xilas edilməsi ilə nəticələnir. Amma, bu xilasda Alyoxinin inadkar müdafiəsindən başqa üçüncü dünya çempionu Kapablankanın qeyri-dəqiq oyun nümayiş etdiyini bildirmək lazımdır.
2. Nə qədər qəribə görünsədə A. Alyoxin X.R. Kapablankanın debüt repertuarını incəliyərək qərara gəlir ki, onunla qapalı debütlərdə mübarizə aparmaqda daha çox uğur qazanmaq imkanları vardır.
3. Odur ki, matçda A.Alyoxin ağlarla oynadığı 17 oyunun hər birində 1.d2-d4 gedişi ilə başlamışdır.

Bütün bu klassik bilikləri və günümüzün ayrılmaz hissəsi olan kompüterlərin, internet

səhifələrin vasitəsi ilə meydana çıxmış elektron oyun platformaların yaratdığı müxtəliflikdən faydalanaraq, məqalədə yarışlarda konkret rəqibə qarşı oyuna necə hazırlaşmağa dair müəyyən təklif və tövsiyyələr şərh edilmişdir.

1984-cü ildə Litvanın paytaxtı Vilnüs şəhərində Qarri Kasparov ilə Vasili Smıslov arasında iddiaçıların final matçı keçirilmişdir. Şahmat tarixinin yeddinci dünya çempionu V.Smıslovun yarışa və yarış zamanı hazırlıq prosesinə dair özünəməxsus metodikası ilə tarixə damğa vurmuşdur. Qeyd olunan metodika aşağıda bəndlər ilə qeyd edilmişdir:

a) V.Smıslov öncə oyunun gedişatı zamanı gözlənilən və mümkün mövqeləri bir qeyd dəftərçəsinə toplayaraq, yarana biləcək mövqelər üzərində düşünən zaman ideyaları boş səhifəyə yazırdı.
b) Sonra isə Smıslov, öz sekundantları-qrossmeysterlər, V.Kupreyçik və Y.Averbaxı birlikdə qeyd edilmiş ideyaları yoxlayırdılar. Burada da əsasən sekundantlar Smıslova qarşı oynayırdılar.
c) Yarışa hazırlıq prosesində bir fikir V.Smıslovun xoşuna gəlmirdisə o, dərhal həmin vərəqi amansızcasına cırıb zibil qutusuna atırdı. Hətta, bəzən sekundantlar Smıslovun fikrinə qarşı olaraq o vərəqlərdəki fikirlərin maraqlı olduğunu və sonradan onlar üzərində işləmək istədiklərini deyərək saxlamağa çalışsalar da, Vasili Smıslov onlara heç vaxt qulaq asmır və acımadan vərəqi cırıb onu dərhal unutduğunu deyirdi.

Həmçinin, səkkizinci dünya çempionu hücum və kombinasiyalı oyun üslubu ilə şahmat tarixinə imza atan Mixail Talın, yüksək dərəcəli şahmatçıların və məşqçilərin işlərində töhfə verəcək maraqlı hazırlıq metodunu təsvir etmək lazımdır [1, s.174]. Məlumdur ki, M.Tal iştirak etməyi planladığı turnirə 1-2 ay qalmış oyunların günün hansı saatlarında olacağı saatları dəqiq öyrənməyə çalışırdı. Bu oyun saatların dəqiq öyrəndikdən sonra M.Tal hər gün həmin saatlarda 1, 2 gedişli sadə taktiki məsələlər həll edirdi. Bir növü yarış vaxtında öz beynini həmin saatlarda iti, sərrast işləməyə vərdiş etdirməyə çalışırdı. Ümumiyyətlə insan beyni bütün sahələrdə olduğu kimi, şahmat idman növündə də bütün sutka ərzində eyni temp və diqqətlə bir mövzu üzərində düşünə bilmir. Göründüyü kimi bunu nəzərə alan dünya çempionu M.Tal bir növü beyinə düşünmək üçün istiqamət verirdi. Səkkizinci dünya çempionunun öz dövründə sınaqdan keçirdiyi yarışa hazırlıq metoduna dərindən nəzər saldıqda çox incə bir yanaşmanın olduğunu görmək mümkündür.

Yüksək dərəcəli şahmatçıların yarış zamanı konkret rəqibə qarşı hazırlıq prosesinə müxtəlif fərdi yanaşma üsullarını və şahmat kompüter proqramlarının müasir təhlil imkanları, həmçinin də virtual şahmat dünyasının yaratdığı yeni sahələrin şərtlərini nəzərə almaq lazımdır.

Bütün idman növləri bir aksiomaya tabedir - idmanda yüksək nəticələr qazanılması üçün güclü və düzgün hazırlıq prosesi olmalıdır. Nəinki yüksək dərəcəli şahmatçıların, hətta bir çox peşəkar şahmatçıların, habelə qrossmeysterlərin oyunlarında ən çox rast gələnən aktual problemlərindən biri yarış zamanı düzgün hazırlıq prosesinin olmamasıdır. Aparılan statistik nəticələr buna bariz nümunədir. Məqalədə toxunulan problemin aradan qaldırılması və həlli istiqaməti üzrə, yüksək dərəcəli şahmatçılar və məşqçilər üçün «Chessbase mexanizmi» təklif edilir (şəkil 1).




***Şəkil 1.***

Chessbase – müasir şahmat kompüter aləminin nəhəng hazırlıq proqramlarından biridir [5].

«Chessbase mexanizmin» dən istifadə qaydası aşağıda öz əksini tapmışdır:

Birinci mərhələdə ilk öncə «ChessBase» şahmat proqramında oyunların olduğu bazaya daxil olub idmançının oyunları axtarışa verilir (şəkil 2). İkinci mərhələdə açılan pəncərədə «Dossier» bölməsini seçilir. Üçüncü mərhələdə açılan pəncərədə dörd variantdan ibarət seçim formasını müəyyən etmək tələb olunur. Dördüncü və son mərhələ olaraq, əgər seçilmiş oyunların sayı 300 oyundan çoxdursa o zaman «Fine» və ya «Normal» bölümünü, yox əgər oyun sayı az olarsa onda «None» və ya «Course» bəndlərini seçmək lazımdır (şəkil 3). Bundan sonra proqram təhlil alqoritmi vasitəsi ilə rəqibin oyunlarını debütlər üzrə, xoş və ya təhlükəli rəqiblər üzrə, həyata keçirilən kombinasiyalar üzrə təsnif edilərək təqdim edir (şəkil 4). «Dossier» bölməsinin digər müsbət tərəfi ondan ibarətdir ki, uğurlu oynanılan, nəticələr yaxşı olan debütləri proqram yaşıl rənglə, zəif nəticələri olan debüt variantları isə qırmızı rəngli kursiv ilə işarələyib axtarış icrasını yerinə yetirir. «Dossier» bölməsi ilə tez bir zamanda min yüzlərlə oyunları incələməyə vaxt itirmədən, rəqibin zəif və qüvvətli tərəflərini görmək mümkündür.




*Şəkil 2.*




*Şəkil 3.*

| | |
|---|---|
| 1.e4 e6 2.d4 d5 | N=68, Last played 2022, 76% =>2650 |
| 1.e4 c6 2.d4 d5 | N=59, Last played 2021, 70% =>2696 |
| 1.d4 Nf6 2.c4 e6 3.Nf3 d5 4.Nc3 Be7 | N=63, Last played 2021, 66% =>2756 |
| 1.d4 Nf6 2.c4 e6 3.Nc3 Bb4 | N=95, Last played 2022, 62% =>2782 |
| 1.d4 Nf6 2.c4 g6 3.Nc3 d5 | N=54, Last played 2022, 72% =>2892 |

*Şəkil 4.*

Müasir şahmat dövrünün digər aktual problemlərindən biri yarış reqlamentinin sərtləşməsi, yarışların keçirilmə vaxtının azaldılması ilə səciyyələnir. Məna etibari ilə bir gündə 2 və hətta 3 turun keçirilməsi məlum olduğu kimi oyuna hazırlaşmaq imkanlarını ciddi olaraq məhdudlaşdırır. Sadəcə olaraq vaxt çatmır. Yarış zamanı hazırlıq prosesinin keyfiyyətini aşağı endirən «zaman» amilini kompensasiya etmək üçün ən azından bir neçə nüansı diqqətə almaq lazımdır. Yarışa hazırlıq dövrünü idman nəzəriyyəsinə əsaslanaraq düzgün qiymətləndirmək, məşqin bütün hazırlıq meyarlarına cavab verdiyini tənzimləmək və bununla yanaşı məşqçi və ya sekundant ilə yarışlara gedilməsi şiddətlə tövsiyə olunur. Eyni zamanda ən azından bir şahmat proqramı ilə təchiz olunmuş fərdi kompütersiz bu gün yarışlarda iştirak etmək ən azından səriştəsizlikdir.

Təxminən 50-60 il öncə, şahmatçının inkişafını təmin edən əsas xüsusiyyətlərdən

biri mütaliə, şahmat kitablarından və jurnallarından topladığı materialların necə mənimsənilməsindən asılı olduğu kimi, eyni ilə müasir şahmatçının inkişafında şahmat kompüter proqramlarının və şahmat internet səhifələrinin əhəmiyyətini görməmək səhv olardı.

Yüksək dərəcəli şahmatçıların yarış zamanı konkret rəqibə qarşı hazırlıq prosesinin aktuallığına dair məqalədə təhlil və tədqiq olunaraq tövsiyyə məcmuəsi sistemləşdirilərək aşağıda qeyd olumuşdur.

1. Yüksək dərəcəli şahmatçılara tövsiyə olunur ki, yarışa hazırıq prosesində əsas rəqiblər haqqında mümkün qədər çox və faydalı məlumatlar toplayıb və onlara qarşı hər iki rəngli fiqurlar tərəfdən debüt repertuarı hazırlanmalıdır. Bu hazırlanmış variantlar sürprizlərlə nə qədər çox zəngin olarsa bir o qədər yaxşı olar. Eyni zamanda rəqiblərin oyun tərzləri, güclü və zəif tərəfləri müəy-

yən edilməsi vacib hesab edilir. Ayrı-ayrılıqda hər bir potensial rəqib üçün xüsusi fayıllar yaradılmalıdır.

2. Gücün qənaət edilməsi. Məsələn məlumdur ki, məşhur şahmatçıların çoxu turnirdən öncə bu turnirdə onlara nə qədər xal toplamaq lazım olduğunu planlaşdırırlar. Təbii ki, əvvəlcədən hər şeyi dəqiq planlaşdırmaq mümküdeyil. Ancaq, buna doğru səy göstərib cəhd etmək lazımdır. Misal üçün iki oyun olan günlərdə ola bilsin ki, oyunun birini mümkün qədər tez heç-heçə ilə bitirmək, ola bilsin daha məqsədəuyğundur.
3. Şahmat tarixinin altıncı dünya çempionu və sovet şahmat məktəbinin banisi Mixail Botvinnik hesab edirdi ki, rəqibləri təəcübləndirmək, diqtə edən tərəf olmaq üçün hər bir turnir üçün 2-3 yeni variantın hazırlaması və tətbiq edilməsi vacibdir. Düşünmək üçün vaxtın azalması bir oyun ərzində çoxlu sayda problem həll etməyi imkansız edir. Odur ki, rəqibi təəcübləndirməyin, onun qarşısında problem qoymaq çox vacibdir. Rəqib qarşısında nə qədər çox problem qoyularsa, bir o qədər rəqibin səhv etmək ehtimalı çoxdur.
4. Həmçinin yuxarıda şərh edilən 8-ci dünya çempionu Mixail Tal tərəfindən tətbiq olunan taktiki hazırlıq metodu yüksək dərəcəli şahmatçılar və məşqçilər üçün gözardı edilməməsi məsləhət görülür. Əvvəlcədən oyunların gedişində kritik seytnot zamanlarının yaxınlaşdığı vaxtları müəyyən etmək mümkündür. Bunun üçün turnirə 2-3 ay qalmış həmin kritik saatlarda taktiki məsələlərin həll edilməsi vacibdir.
5. Xüsusi olaraq vurğulanmağı vacib olan məqamlardan biri də idmançının gücü, imkanları ilə onun və valideynlərin, ən əsası məşqçinin arzuları üst-üstə düşməsidir ki, bu da uğur qazanmaq imkanının daha real olacağını şərtləndirir.

## ƏDƏBİYYAT


1. **Михаил Таль** *Дорогами шахматных сражений». Александр Кобленц.* Издатель А.Ельков, 2023, 225 с.
2. **Александр Алехин** *Жизнь как война*. Купцов С.А., «Издательство АСТ», Москва, (Большой спорт), 2024, 368 с.
3. **Котов А.А.** *Уроки шахмат*. «Russian chess house / Русский Шахматный Дом»., 2019, 136 стр. (Шахматный Университет).
4. **Mark Dvoretsky, Artur Yusupov., Russell Enterprises** *Technique in Chess*. LLC. 2023, 379p.
5. https://en.chessbase.com/.


# ИССЛЕДОВАНИЕ ПРОЦЕССА ПОДГОТОВКИ ВЫСОКОКВАЛИФИЦИРОВАННЫХ ШАХМАТИСТОВ К ИГРЕ С КОНКРЕТНЫМ СОПЕРНИКОМ ВО ВРЕМЯ СОРЕВНОВАНИЯ


**д.м.н, проф. Б.Э. Рустамов[1a], С.О. Ибрагимова[1b], С.Б. Гулиев[1c], Ж.А. Магеррамли [1d]**

[1] *Акакдемия Спорта Азербайджана*
[a] bakhtiyar.rustamov@sport.edu.az, orcid.org/0000-0003-2683-0996
[b] sabina.ibrahimova@sport.edu.az, orcid.org/0009-0001-2480-7154
[c] sarkhan.guliyev@sport.edu.az, orcid.org/0009-0003-6103-700X
[d] jala.maharramli.2024@sport.edu.az, orcid.org/0009-0003-6103-700X



**Аннотация.** Несмотря на то что, процесс подготовки высококвалифицированных шахматистов изучен досконально, технические изменения последних десятилетий требуют заново взглянуть на этот процесс. Используя разнообразие электронных игровых платформ, появившихся благодаря компьютерам и веб-сайтам, кото-

рые являются неотъемлемой частью сегодняшнего дня, в статье излагаются предложения и рекомендации о том, как подготовиться к игре с конкретным соперником на соревнованиях. Одной из актуальных проблем современного вида спорта шахматы - является процесс подготовки высококвалифицированных шахматистов к конкретному сопернику в ходе соревнований. В книгах известных гроссмейстеров А. Котова, З. Бондаревского и других, которые впоследствии развивали эту тему в своих работах, отчетливо видно, что, как правило, исследование проводились по схеме, проанализированной за подписью М. Ботвинника. Марк Дворецкий, один из известных тренеров в шахматном мире, подробно проанализировал процесс подготовки к индивидуальному сопернику во время соревнования, а также к соревнованию в целом. Так же, как одной из основных характеристик, обеспечивавших развитие шахматиста около 50–60 лет назад, была его способность читать, в зависимости от того, насколько хорошо он усваивал материалы, собранные им из шахматных книг и журналов, было бы ошибкой игнорировать важность шахматных компьютерных программ и шахматных веб-сайтов в развитии современного шахматиста.

В статье анализируется и исследуется актуальность процесса подготовки высококвалифицированных шахматистов к игре с конкретным соперником во время соревнования, систематизируется комплекс рекомендаций. Для устранения и решения проблемы, затронутой в статье, предложен «механизм Chessbase» для шахматистов и тренеров высокого уровня.

**Ключевые слова:** *шахматы, высококвалифицированный, шахматисты, тренировка, соревнование, компьютер, программа.*

## RESEARCH PROCESS OF PREPARING HIGH-LEVEL CHESS PLAYERS TO PLAY WITH A SPECIFIC OPPONENT DURING COMPETITION

**DSc., prof. B.A. Rustamov[1a], S.O. Ibrahimova[1b], S.B. Quliyev[1c], Z.A. Maharramli[1d]**

[1]*Azerbaijan Sports Academy*
[a] bakhtiyar.rustamov@sport.edu.az, orcid.org/0000-0003-2683-0996
[b] sabina.ibrahimova@sport.edu.az, orcid.org/0009-0001-2480-7154
[c] sarkhan.guliyev@sport.edu.az, orcid.org/0009-0003-6103-700X
[d] jala.maharramli.2024@sport.edu.az, orcid.org/0009-0003-6103-700X

**Annotation.** Despite the fact that the process of training high-level chess players has been thoroughly studied, the technical changes of recent decades – such as the emergence of the internet, personal computers, and chess software – require a fresh look at this process.

Using the variety of electronic gaming platforms that have emerged thanks to computers and websites that are an integral part of today, the article presents suggestions and recommendations for preparing for a match with a specific opponent in a competition. One of the pressing problems of the modern sport of chess is the process of preparing high-level chess players with a specific opponent during competitions. In the books of famous grandmasters A. Kotov, Z. Bondarevsky and others, who subsequently developed this topic in their works, it is clearly seen that, as a rule, the studies were carried out according to the scheme analyzed under the signature of M. Botvinnik. Mark Dvoretsky, one of the famous coaches in the chess world, analyzed in detail the process of preparing for a match with an individual opponent during a competition, as well as for the competition as a whole. Just as one of the main

characteristics that ensured the development of a chess player about 50-60 years ago was his ability to read, depending on how well he assimilated the material collected from chess books and magazines, it would be a mistake to ignore the importance of chess computer programs and chess sites in the development of a modern chess player. The article analyzes and examines the relevance of the process of preparing high-level chess players to play with a specific opponent during competitions, and also systematizes a number of recommendations. To eliminate and solve the problem raised in the article, the «Chessbase mechanism» is proposed for high-level chess players and coaches.

**Keywords:** *chess, high, degree, chess player, preparation, competition, computer, program.*